SAMİNƏ
HİDAYƏTQIZI



# Muğam qəsri

Azərba
Kitabxana

Xarici ölkələrdə 20-dən artıq kompakt diski buraxılmışdır. Milli radio və xarici ölkə radiolarının fondlarında lent yazıları bu günədək saxlanılır

## O AZƏRBAYCAN MUSİQİSİNİ BÖYÜK MƏHARƏT VƏ USTALIQLA DÜNYADA TƏMSİL EDİR



**Möhlət Xanəli oğlu Müslümov**

**tarzən, Azərbaycan Respublikasının xalq artisti**

**9 avqust 1954 (Bakı)**

Mən bu ağır yükü uzun illər çiyinlərində daşıyan görkəmli sənətkarımız Həbib Bayramovu xatırlayıram. İstərdim xatırlayım kamançalan Mütəllim Novruzovu, gözəl saz çalan Zakir Bayramovu, uzun illər bas tarı çalan müəllimim Akif Novruzovu. Bu ansamblda yetişən barmaqla sayılacaq insanlar var və onlar həyatda yaşayırlar. Elşad Cabbarov, Nizami Allahverdiyev, Fəxrəddin Dadaşov, Tahir Zakirov, Seyidməmməd Zəkizadə... Gəncləri bu ansambla dəvət edirəm ki, onlar ağsaqqaların yanında yetişsinlər, ənənələri qoruyub saxlasınlar. 40-dan artıq xarici dövlətlərdə Azərbaycan musiqisini təbliğ etmişik. Bir neçə xarici dövlətlərin radio fondunda bizim üçlüyün solo ifası, çoxlu lent yazıları var. Təkcə Azərbaycanda deyil, eləcə də, İranda, Türkiyədə çoxlu disklərimiz çıxıb. Azərbaycan televiziyasında 6 «muğam axşamı» və müsabiqədə qalib gələnlərin oxuduqları gözəl muğam dəstgahlarını yazdırmışam...»

♦ Ü.Hacıbəyov adına ADK-nın x.ç.a. şöbəsini tar ixtisası üzrə bitirib.

♦ 1975-ci ildən Ş.Rüstəmov adına Xalq Çalğı Alətləri orkestrində solist,

♦ 1987-ci ildən M.Maqomayev adına ADF-də C.Qaryağdıoğlu adına muğam üçlüyünün yaradıcılarından biridir.

♦ 1988-ci ildən ADK-da müəllim, baş müəllim işləyib. Hazırda Azərbaycan Milli Konservatoriyasının muğam kafedrasının professorudur.

♦ 1994-cü ildən AzTR Ə.Bakıxanov adına xalq çalğı alətləri ansamblının bədii rəhbəridir.

♦ 2006 – Azərbaycanın xalq artisti adına layiq görülüb.

♦ Prezidentin fəxri təqaüdçüsüdür.